**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**“Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 24 dekabr tarixli 5-VII FR nömrəli Fərmanının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və bir sıra qərarlarının ləğv edilməsi barədə**

“Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 24 dekabr tarixli 5-VII FR nömrəli Fərmanının 9-cu hissəsinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin dövlət notariat kontorları və vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı şöbələri işçilərinin vəzifə maaşları haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2003-cü il 14 fevral tarixli 30 nömrəli Qərarının 2-ci hissəsi ləğv edilsin.

2. “Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin strukturuna daxil olan bir sıra qurumların ştat cədvəllərinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 may tarixli 86 nömrəli Qərarının 1-ci, 2-ci və 4-cü hissələri ləğv edilsin.

3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aşağıdakı qərarları ləğv edilsin:

3.1. “Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin Naxçıvan Filialı”nın strukturunun təsdiq olunması haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2006-cı il 11 oktyabr tarixli 92 nömrəli Qərarı;

3.2. “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin Naxçıvan Muxtar Respublikası ərazisində müvəqqəti yaşayış yeri ilə təmin olunma qaydası və həmin müvəqqəti yaşayış yerlərində yaşamaq müddətinin artırılmasının müstəsna halları”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 aprel tarixli 46 nömrəli Qərarı;

3.3. “Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Dövlət notariat kontorlarının və qeydiyyat şöbələrinin yeni strukturu və ştat sayının təsdiq olunması haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2008-ci il 7 may tarixli 48 nömrəli Qərarı;

3.4. “Tutulmuş və ya həbs edilmiş şəxslərin yemək və maddi-məişət normalarının təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 28 fevral tarixli 33 nömrəli Qərarı;

3.5. “İctimai işlər cəzasına məhkum olunmuş və ictimai işlər növündə inzibati tənbeh tədbiri tətbiq edilmiş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 11 noyabr tarixli 117 nömrəli Qərarı;

3.6. “Naxçıvan Muxtar Respublikası ədliyyə orqanları işçilərinin attestasiyası Qaydası”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 11 noyabr tarixli 119 nömrəli Qərarı;

3.7. “Naxçıvan Muxtar Respublikasında ictimai işlər növündə cəza çəkən və ya ictimai işlər növündə inzibati tənbeh tətbiq olunmuş şəxslərin elektron nəzarət vasitəsindən istifadə Qaydası”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 11 fevral tarixli 42 nömrəli Qərarı;

3.8. “Məhkum edilmiş şəxslərə tətbiq edilən elektron nəzarət vasitələrinin siyahısının və onların tətbiqi qaydalarının təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 5 aprel tarixli 82 nömrəli Qərarı;

3.9. “Naxçıvan Muxtar Respublikasında azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 9 dekabr tarixli 249 nömrəli Qərarı.

4. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “27” yanvar 2025-ci il

№ 4